**Azərbaycan Respublikası**

**Siyəzən Rayon İcra Hakimiyyəti başçısının**

**S Ə R Ə N C A M I**

№ 32 25 aprel 2018-ci il

**Siyəzən Rayon İcra Hakimiyyətində inzibati xətalar haqqında işlərə baxmağa səlahiyyəti olan vəzifəli şəxslərin siyahısının təsdiq edilməsi barədə**

"Azərbaycan Respublikası İnzibati Xətalar Məcəlləsinin təsdiq edilməsi haqqında" Azərbaycan Respublikasının 2015-ci il 29 dekabr tarixli 96-VQ nömrəli Qanununun tətbiqi barədə Azərbaycan Respublikası Prezidentinin 2016-cı il 15 fevral tarixli 795 nömrəli Fərmanının 4.5, 4.7, 4.24-1, 4.40, 4,46, 5.30, 5.53 və 5.57-ci bəndlərinin icrasının təmin edilməsi məqsədi ilə "İnzibati xətalar haqqında işlərə baxmağa səlahiyyəti olan vəzifəli şəxslərin Siyahısı"nın təsdiq edilməsi barədə 2017-ci il 23 fevral tarixli 1256 nömrəli Fərmanının 1 və 5-ci bəndlərinə və Azərbaycan Respublikası Prezidentinin 2012-ci il 6 iyun tarixli 648 nömrəli Fərmanı ilə təsdiq edilmiş "Yerli icra hakimiyyətləri haqqında Əsasnamə"nin 4.15.6-cı bəndinə əsasən **qərara alıram:**

**1.** Aşağıdakı şəxslər Siyəzən Rayon İcra Hakimiyyətində inzibati xətalar haqqında işlərə baxmağa səlahiyyəti olan vəzifəli şəxslər müəyyən edilsinlər:

Əliyev Zəfər Nüsrət oğlu - Rayon İcra Hakimiyyəti başçısının müavini-Sosial-iqtisadi inkişafın təhlili və proqnozlaşdırılması şöbəsinin müdiri- Azərbaycan Respublikası İnzibati Xətalar Məcəlləsinin 400, 454, 455.1, 455.2 və 469.1-ci maddələrinə əsasən baxılan işlər üzrə;

Novruzov Səxavət Mehdi oğlu - Rayon İcra Hakimiyyəti başçısı aparatının Memarlıq və tikinti şöbəsinin müdiri-baş memar-Azərbaycan Respublikası İnzibati Xətalar Məcəlləsinin 393, 395, 396-cı maddələrinə əsasən baxılan işlər üzrə;

Bəşirov Xaqani Paşa oğlu - Rayon İcra Hakimiyyəti başçısı aparatının Ərazi idarəetmə və yerli özünüidarəetmə orqanları ilə iş şöbəsinin müdiri-Azərbaycan Respublikası İnzibati Xətalar Məcəlləsinin 587-ci maddəsinə əsasən baxılan işlər üzrə.

**2.** Həmin vəzifəli şəxslərə tapşırılsın ki, Azərbaycan Respublikasının İnzibati Xətalar haqqında qanunvericiliyinin müvafiq tələblərinin müəyyən edilmiş səlahiyyətləri daxilində yerinə yetirilməsini təmin etsinlər.

**3.** Sərəncamın icrasına nəzarət Siyəzən Rayon İcra Hakimiyyəti başçısının müavini-Sosial-iqtisadi inkişafın təhlili və proqnozlaşdırılması şöbəsinin müdiri Zəfər Əliyevə tapşırılsın.

**Asif Hüseynov**